Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**ALORA®** 100 mq örtüklü tabletlər
ALORA®

**Tərkibi**
*Təsiredici maddə:* 1 tabletin tərkibində 100 mq Passifloranın quru ekstraktı (tərkibində 3,5 % flavonoid şəklində Viteksin) vardır.
*Köməkçi maddələr:* povidon (PVP K30), krospovidon (Kollidon CL), natrium kroskarmelloza, kolloidal susuz silisium dioksid (Aerosil 200), mikrokristallik sellüloza PH 102, maqnezium stearat.
*Örtük No 12 (SepiFilm LP 007):* metilhidroksipropil sellüloza (E464), mikrokristallik sellüloza (E460), stearin turşusu (E570).
*Qırmızı şərab (Kandurin Qırmızı Parıltı):* kalium alüminium silikat (E555), qırmızı dəmir oksidi (E172).

**Təsviri**
Qırmızı şərab rənqli, dairəvi, qabarıq, səthi bərabər örtüklü tabletlərdir.

**Farmakoterapevtik qrupu**
Sedativ vasitələr.
**ATC kodu:** N05CM.

**Farmakoloji xüsusiyyətləri**
Passiflora ekstraktı təbii bitki *Passiflora incarnata*-dan alınır. Tərkibində indol sırasından alkaloidlər 0.04 % (harman, harmin, harmol), flavonoidlər (viteksin, kvertisin), kumarinlər, xinonlar və digərləri vardır.
Ekstraktın komponentləri sinir impulsunun onurğa beynində və beyində keçirilməsinə mane olur, MSS oyanıqlığını azaldaraq sedativ effekt təmin edir.
Bu dərman vasitəsi depressiv hallarda əhval ruhiyəni yaxşılaşdırır, narahatçılıq hissini və zehni gərginliyi azaldır. Səhər depressiyası simptomları yaratmadan zəif yuxugətirici effekti var. Həmçinin qıcolma əlehinə xüsusiyyətlərə də malikdir.

**İstifadəsinə göstərişlər**
Alora® 100 mq örtüklü tabletlər mental stressin mülayim simptomlarının yüngülləşdirilməsi üçün və yuxu pozulmaları zamanı istifadə olunur.

**Əks göstərişlər**
Preparatın komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslıq.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Əldə olunan məlumatlar yetərli olmadığından 12 yaşdan aşağı olan uşaqlarda istifadəsi məsləhət görülmür və əlavə tibbi məsləhət zəruridir.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Baxmayaraq ki, sintetik sedativ vasitələrlə qarşılıqlı təsir haqda məlumat mövcud deyil, sedativ preparatlarla (benzodiazepin kimi) paralel qəbulu həkimin xüsusi göstərişi olmadan məsləhət görülmür.
MAO inhibitorlarına aid olan Fenelzinlə eyni vaxtda istifadə etmək məsləhət görülmür. Disulfiramla birlikdə istifadə etmək olmaz.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik zamanı və laktasiya dövründə bu preparatın istifadəsi haqqında məlumat mövcud deyil, buna görə ana üçün gözlənilən fayda və körpəyə olan potensial riski qiymətləndirmək vacibdir.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Preparatla müalicə zamanı avtomobil və digər potensial təhlükəli mexanizmlərin istifadəsindən qaçmaq lazımdır.

**İstifadə qaydası və dozası**
*Gün ərzində sedativ təsiri təmin etmək üçün:* böyüklər üçün tövsiyə edilən peroral doza gündə üç dəfə yeməkdən əvvəl 100 mq təşkil edir.
*Yuxu pozğunluğu zamanı:* böyüklər üçün tövsiyə edilən peroral doza gündə bir dəfə yatmazdan bir saat əvvəl 200-300 mq təşkil edir.
12 yaşdan aşağı uşaqlarda istifadəsi tövsiyə olunmur.

**Əlavə təsirləri**
Əlavə təsirlərin rastgəlmə tezliyi aşağıdakı kimi təsnif edilir: çox tez-tez (≥1/10); tez-tez (≥1/100-dən <1/10-a qədər); bəzən (≥1/1000-dən <1/100-ə qədər); nadir (≥1/10000-dən <1/1000-ə qədər); çox nadir (<1/10000); məlum olmayan (mövcud məlumatlar əsasında qiymətləndirmək mümkün deyil).
*İmmun sistemin pozğunluqları*
Məlum olmayan: hiperhəssaslıq (vaskulit) (bir hal qeydə alınıb)
*Ürək pozğunluqları*
Məlum olmayan: taxikardiya (bir hal qeydə alınıb)
*Mədə-bağırsaq pozğunluqları*
Məlum olmayan: ürəkbulanma (bir hal qeydə alınıb)
Yuxarıda qeyd olunmayan hər hansı əlavə təsir əmələ gəldikdə həkimlə məsləhətləşmək lazımdır.
*ƏLAVƏ TƏSİRLƏR YARANDIQDA HƏKİMİNİZLƏ MƏSLƏHƏTLƏŞİN.*

**Doza həddinin aşılması**
Preparatın doza həddinin aşılması barədə məlumat yoxdur. Doza həddinin aşılması olarsa, mədə yuyulmalı və simptomatik müalicə aparılmalıdır.

**Buraxılış forması**
Alora® 100 mq örtüklü tabletlər, ağ, qeyri-şəffaf PVX/TE/PVDX/Al blisterlərdə. 30 örtüklü tablet (3 blister) içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.
*Digər buraxılış forması*
Alora® 100 ml şərbət, plastik qapaqlı kəhrəba rəngli şüşə flakonda 5 ml-lik ölçü qaşığı və içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25 °C-dən aşağı temperaturda, öz qutusunda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
NOBEL İLAÇ SANAYİİ VE TİCARET A.Ş.
Sancaklar 81100 Düzce/Türkiye.

**Lisenziya sahibi**
NOBEL İLAÇ SANAYİİ VE TİCARET A.Ş.
Ümraniye 34768 İstanbul/Türkiye.